*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *p-ISSN: 2410-5600*
*Əlyazmalar yanmır / Manuscripts don't burn № 1, 2025, səh. 75-83*

https://doi.org/10.59849/2410-5600.2025.1.75

UOT: 821.512.162

**Günel Quliyeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: gunelguliyeva@anas.az*

# SEYİD ƏZİM ŞİRVANİNİN SATİRİK YARADICILIĞINDA İCTİMAİ TƏNQİD VƏ MAARİFÇİLİK

## Xülasə

Seyid Əzim Şirvani XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli maarifçilərindən biri kimi satirik poeziyamızda mühüm rol oynamışdır. Şairin satirik yaradıcılığı  gerilik, nadanlıq, riyakarlıq və ədəalətsizliklərlə dolu mübarizəyə yönəlmişdi. Seyid Əzim Şirvani sadə, anlaşıqlı dildə yazaraq, xalqı maarifə səsləyir, cəhalət yuxusundan oyatmağa çalışırdı. Yazdığı əsərlərdə maarifçilik ideyalarını və bəşəri-dünyəvi düşüncəni ön plana çəkən Seyid Əzim Şirvani satiranı təkcə gülüş hədəfi kimi deyil, eyni zamanda ictimai tənqid və islahat aləti kimi istifadə etmişdir. O, dövrün əsas ictimai bəlaları hesab olunan savadsızlıq, riyakarlıq, dini fantaizm, qadın hüquqlarının pozulması kimi halları tənqid atəşinə tutaraq maarifçilyin və ağlın üstünlüyünü ön plana çəkirdi. Şairin satirik məzmunlu şeirləri Azərbaycan ədəbiyyatında  milli oyanış və tənqidi realizmin inkişafında xüsusi əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** *Seyid Əzim Şirvani, maarifçilik, satira, realizm, ictimai tənqid*

## Giriş

*Seyid Əzim Şirvani klassik üslubda yazdığı şeirləri ilə orta çağ ədəbi ənənələrini, ictimai məzmunlu əsərləri ilə yeni dövrün çağırışlarını dilə gətirməklə özündə iki böyük epoxanı birləşdirən nəhəng sənətkar idi. Seyid Əzimin ictimai məzmunlu şeirləri onun vətənpərvərlik, yurdsevərlik, milli təəssübkeşlik ruhundan doğurdu, onun şeirləri Azərbaycan xalqının keçmişdən gələcəyə istqamətlənən yolunda körpü rolunda çıxış edirdi. Amma şairin yeniləşmək, müasirləşmək istəyi, avropalılaşmaq arzusu inkarçılıq fəlsəfəsinə deyil, humanist-insani dəyərlər üzərində evolyusiya, ictimai tərəqqi, köhnəliyin müsbət tərəfləri ilə yeni mütərəqqi dəyərlərin sintezi məntiqinə söykənirdi. Seyid Əzim İslama münasibətdə ümmətçi, türklüyə münasibətdə türkçü, Azərbaycana münasibətdə vətənçi idi. Əslində, bu üçlü konfiqurasiya onun ədəbi mübarizəsinin, poetik cihadının əsasını təşkil edirdi. Seyid Əzimin ictimai mahiyyət daşıyan şeirləri onun yüksək ideallarının, üsyançı məfkurəsinin bədii ifadəsi olmaqla bərabər, həm də şairin poetik proqramı idi. Şirvani təkcə tənqid və ifşa etmir, cəmiyyətin hansı yolla getməli olduğunu göstərirdi. Şairin bütün satiraları, təmsilləri, taziyanələri, həcvləri, xitab və nəsihətnamələri özündə ümumi ideyanı ehtiva edən konkret beyt və ya beytlərlə başa çatır. Məsələn, şairin "Dəvə və balası" adlı təmsilində söhbət ağır yük altında səhraları dolaşan bir dəvənin balasının ona şikayətindən gedir, dəvə balası anasından niyə bu qədər "məşəqqət və mərarət" çəkdiyini, bir an dincəlmədiyini soruşur, ana ixtiyarının öz əlində olmadığını, "sarbanın əlində" olduğunu deyir. Lakin feodal-patriarxal cəmiyyətin qayda-qanunlarına etiraz üzərində qurulmuş  ana ilə bala arasındakı dialoq sadəcə təsvirlə bitmir, müəllif vəziyyətdən çıxış yolunu müsəlman dünyasının elmə, texnologiyaya yiyələnməsində görür və sonda fikrini belə yekunlaşdırır:*

*Leyk təhsilə eylə sən tədbir,*
*Şayəd olsun müvafiqi-tədbir [5, s.502].*

Seyid Əzim Şirvanini dövrünün böyük realist şairi kimi tanıdan, onu döyüşkən, mübariz sənətkarlar cərgəsinə qoşan, böyük ideallar uğrunda fədakar qələm sahibinə çevirən onun satiralarıdır. "Seyid Əzimin fəaliyyəti sayəsində satira XIX əsrin 70-80-ci illərində yüksək bir inkişaf mərhələsinə qalxdı" [3, s.481]. Cəmiyyət daxilindəki bütün neqativ qüvvələr –yalançı, süründürməçi, xalqına yuxarıdan aşağı baxan dövlət məmurları; milli düşüncə və təfəkkürdən uzaq, kimliyini dərk etməyən saxta ziyalı təbəqəsi; öz yurddaşlarına, həmvətənlərinə qənim kəsilən, ancaq özündən yuxarıdakıların qarşısında qul olan mülkədarlar, feodal sinfi; dinlə alver edən axundlar, mollalar, seyidlər, hacılar, kərbəlayilər, cahil dindarlar onun əsas tənqid hədəfi idi. "Alimləri məzəmmət edən cahillərə" adlı satiranın əvvəlində saqiyə müraciət edən şair həqiqətləri dilə gətirmək üçün badə istəyir, amma bu, "tərsa, deyr, kinişt (sinaqoq), kəlisa" badəsi deyil, bu, "badeyi-mövla"dır. Bu, sufi badəsidir, insanı həqiqətlərə qovuşdurur. Amma təəssüf ki, müsəlmanlar binayi-qədimdən həqiqət yolundan uzaqlaşıb, Əhrimənə uyub, peyğəmbərin vəsiyyətini unudub.

*Uydular Əhrimənə, hökmi-Süleyman qaldı,*
*Bir də həqqin bizə göndərdiyi fərman qaldı.*
*Bənd olub zahirinə, batini-Quran qaldı,*
*Kəsdilər suyunu, əfsürdə gülüstan qaldı,*
*Necə ki, indi də zahirdi o asar bu gün [5, s.9].*

Bu şeiri iki hissəyə bölmək olar: birinci hissədə şair İslam dünyasındakı qarşıdurmanın səbəblərini izah etməyə çalışır və bunu ilk əvvəldən peyğəmbərin vəsiyyətinin, Quranın hökmlərinin düzgün başa düşülməməsində görür, onun bütövlükdə müsəlman Şərqinə xas olduğu və həmin tendensiyanın bu gün də davam etdiyini vurğulayır, şeirin ikinci hissəsində isə avam və cahil insanların alimlərə irad tutmasını istehza ilə bildirir. Aşağıdakı bəndlərdə bunu aydın görmək olar:

*Bir yaman əsrdi mən bilməyirəm, vaveyla,*
*Fitnəyi-dövri qəmər yoxsa olubdur peyda.*
*Götürüb mənsəbi-Molla Nəqi hər bisərü pa.*
*Az qalıb Ağca bacı da gəlib olsun molla,*
*Yoxdu hərçənd ki, həlvasına bazar bu gün [5, s.11-12].*

Şairin ictimai məzmun baxımından olduqca kəskin satiralarından olan "Şirvanın təzə bəyləri haqqında" müxəmməsi dövrün hadisələrinin daha geniş müstəvidə cəsarətli və sərt şəkildə tənqidi ilə fərqlənir. Seyid Əzimin Rusiya işğalından sonra Aərbaycanın sosial-siyasi, mədəni-iqtisadi, mənəvi-əxlaqi həyatına özbaşınalığın, rüşvətxorluğun, ədalətsizliyin, insan istismarının necə oturmasından, çar hökumətinin bir millətin daxilində hansı yolla nifaq və qarşıdurma toxumu səpməsindən bəhs edən bu şeirində kinayə, sarkazm tez-tez nostalgiya ilə əvəzlənir. Şair dəyişiklikləri müqayisə müstəvisində aparmaqla, hətta feodal-patriarxal mühitin belə çarizmin işğalından yaxşı olduğunu sübut etməyə çalışır. Seyid Əzim Şirvaninin bəzi əsərlərindən çıxış edərək onu ruspərəstlikdə ittiham edənlər şairin rus mədəniyyətinə, dilinə, ədəbiyyatına münasibətilə onun rus işğalçı siyasətinə münasibətini qarışdırırlar. Seyid Əzim Rusiyanın Azərbaycanda apardığı siyasəti işğalçılıq adlandırır, onun nəticələrini –idarəçilik sistemindəki eybəcərlikləri, haqsızlığı, ədalətsizliyi, hüquqsuzluğu kəskin tənqid atəşinə tuturdu:

*Etdi çün dövləti-Rusiyyə bu mülki təsxir,*

*Səltənət mülkünü ta istədi qılsın təmir.*
*Yaranal Yermolovi-sahibi-əqlü tədbir,*
*Şirvanın bəylərini birbəbir etdi təhrir,*
*Hər kəsin layiqi-əhvalını tibyan elədi [5, s.13].*

Burada söhbət çar hökumətinin bəyləri siyahıya almasından gedir. Rus hökuməti işğalçı siyasi sistemi sabitləşdirmək, yerlərdə özünə dayaqlar yaratmaq məqsədilə bəylərə güzəştlər etməyə, onları fərqləndirməyə başladı, bunun üçün onların rəsmləşdirilməsi prosesinə start verildi. Bu isə ölkədə həqiqətən rüşvətxorluğa, pulgirliyə, saxtakarlığa geniş meydan açdı, bəy adı almaq istəyənlər çar hökumətinin yerli nümayəndələrinə "hədiyyələr" verir, onların evlərinə "zənbil-zənbil ət" daşıyır, qabaqlarında qul kimi çalışır və bu yolla saxta bəylik kağızı alırdılar. Onlar əsl bəylərdən fərqli olaraq çarizmə daha çox sədaqətlə qulluq edir, onun əmr və fərmanlarını icra etmək üçün xalqa zülm etməkdən çəkinmir, itaət göstərirdilər. Uzağa getməyək, Cəlil Məmmədquluzadənin əyyaş, ləyaqətsiz, simasız Qurbanəli bəy obrazını xatırlamaq kifayətdir.

*Qaraqaş oğlu ki, heç bəy döydü, bəg dedilər,*
*Pul ki, gəldi araya, bardağa səhək dedilər.*
*Kim ki, pul verмədi, ol yazığı Bərmək dedilər,*
*Müxtəsər eşşəyə at, ata da eşşək dedilər,*
*Bu eşşəklər yeyibən arpanı tüğyan elədi [5, s.15].*

Burada onu xüsusi qeyd edək ki, səlahiyyət sahiblərinin pul, rüşvət müqabilində hətta qeyri-müsəlmanlara bəylik verməsi şairi hiddətləndirirdi [7, s.18]. Məlum olduğu kimi, rus işğalından əvvəl Aərbaycanda siyasi qurum kimi xanlıq idarəçilik sistemi fəaliyyət göstərirdi. Bu sistem nisbətən humanist xarakter daşıyırdı və xanın qərarına təsir göstərə bilən müəyyən kollegial qurumlara ─divan və xanlıq şurasına-malik idi. Bundan əlavə, xanlığın idarə olunmasında məhkəmə orqanları, xüsusilə də şəriət məhkəməsi, hakim vəzifəsini yerinə yetirən mahal naibləri əhəmiyyətli yer tuturdu. Rüşvət hesabına formalaşan və daha çox mütləqiyyətə xidmət edən yeni bəylik sistemi isə xanlıqla daban-dabana ziddiyyət təşkil edirdi. Seyid Əzim çarizmin yaratdığı yeni bəylik strukturunu xanlıqla müqayisə etməklə xanlığa bəraət qazandırır və həmin sistem üçün nostalji hisslərini büruzə verirdi.

*Kül sənin başına Şirvan, əcəb oldun nadan-*
*Ki, sənə sahib olur indi gəlib hər... atan,*
*Hanı əyyami-qədimin, hanı ol Mustafa xan-*
*Ki, çıxıb taxtına izzətlə edərdi divan!*
*Çərxi-zən-qəhbə əçəb bizləri suzan elədi [5, s.17].*

Çünki çarizmin yeni bəylik siyasəti ölkədəki hərc-mərcliyə, özbaşınalığa, acınacaqlı bərabərsizliyə gətirib çıxarmışdı. Seyid Əzim çar məmurlarını «xalqın qanını soran ac quldurlar», polis idarələrini isə fitnə-fəsad yuvaları adlandırırdı. Şair xalqa düşmən kəsilən məmurların insanlara verdikləri sonsuz zülmlə zəlzələnin Şamaxını yerlə-yeksan etməsini müqayisə edir və ictimai zülmlə təbii fəlakəti eyniləşdirirdi:

*Əhli-divanın işin şərh qiləm bir necə bab,*
*Şərhi itmamə yetişməz yazıla əlli kitab.*
*Füqərələr yanıban zülm oduna oldu kabab,*
*Bir tərəfdən elədi zəlzələ Şirvani xərab,*

*Bir tərəfdən ki, bular aləmi viran elədi [5, s.18].*

Əsərdə müəllif tənqid hədəflərinə – çar məmurlarına, hakimlərə, pristavlara, vəkillərə kəskin mənfi münasibətini açıq şəkildə ifadə edir, məhz onların günahı üzündən çoxlarının ev-eşiyindən qaçaq düşdüyünü, dustaq edildiyini yazırdı. S.Ə.Şirvani mənfi qəhrəmanlarının acgözlüyünü, soyğunçuluğunu, dünya malına hərisliyini elə təsvir edirdi ki, oxucu onlara qarşı qəzəb və nifrət hiss edirdi. S.Ə.Şirvaninin satiraları məzmunca dolğun olduğu kimi, bədii-estetik məziyyətləri ilə də diqqəti cəlb edir. Seyid Əzim mənfi tiplərə qarşı bəzən elə bir səviyyədə qəzəblənir ki, obrazlı deyim tərzini unudaraq onların üzərinə açıq şəkildə və birbaşa hücuma keçir, əndazəsiz ifadələr işlədir. Tənqid etdiyi hədəfə müəllifin birbaşa münasibət bildirməsi və beləliklə də, oxucunu, necə deyərlər, istiqamətləndirməsi S.Ə.Şirvaninin satiralarının əsas səciyyəvi cəhətlərindəndir.

Şairin "Şamaxının təzə bəylərini həcv" şeiri onun irəlidəki satirası ilə demək olar ki, müştərək ideyaya, məzmuna və hədəfə malikdir. "Satiranın əsas təsvir və tənqid hədəfi bəy olmaq məğzinə tutulan adi adamlardır. Onları "dövlətdən hörmət" görmək, müftə pul yemək arzusu bu yola təşviq etmişdir. Maarifçi dünyagörüşünün məhdudluğu üzündən dövlət siyasətinin çirkin mahiyyətini görə bilməyən təzə bəyləri şair mənəvi kasıblıqda, dünya malından ötrü qeyrətsizlik göstərib iman satmaqda ittiham edirdi" [4, s.187-188].

*Xəlqi bidin eləyib gör necə bəylik həvəsi,*
*Tərk edib axirəti, cümlə tutub dünyanı [5, s.21].*

Şair təkcə bəy olmaq istəyənləri dinsiz, axirəti tərk edən dünyagir, biqeyrət, bihümmət adlandırmır, həm də onları bu vəzifəyə seçənləri, bu titula layiq görənləri imana, Qurana xilaf çıxmaqda ittiham edirdi. Şair haqqı çatmayanlara bəy adını verən komissiyanın 12 nəfərlik üzvünün könüllü şəkildə kafərliyi öz boynuna götürdüklərini bildirir və onların Allahın qəzəbinə gələcəyinə əminliyini ifadə edir:

*Biri bəy olmaq üçün on ikisi kafər*
*Tutar axır olan həm qəzəbi-rəbbani [5, s.21].*

Seyid Əzim daha sonra ümumi tipik obrazlardan fərdiləşməyə keçir: bəy seçənlərin və seçilənlərin hər birinin portretini cızmağa, xarakterik xüsusiyyətlərini göstərməyə çalışır. Onun üçün bəylik sadəcə var-dövlət yiyəsi olmaq, bazar-ticarətə sahiblik etmək deyil, əsl-nəsəbdir, qəhrəmanlıqdır, ləyaqətdir, xalqa xidmətdir, onu maarifləndirməkdir. Amma bəy adını "insan nəsli içərisidə şeytan kimi görünən, əzazilsifət, bədheybətliyi ilə köpəyi belə qorxudan, tamahkar, bir udum halva üçün yalana and içməyə hazır olan çopur Əhməd"ə, "özünüdartan" Kəblə Hüseyn Nəzər oğluna, "palanı olmayan, amma yaxşı eşşək olan", "bəyliyinə şahid körk ilə zindanı göstərən Hacı Əhməd"ə, "çoban oğlu, anası Kövsər Qələbəzər əhli üçün çörəkbişirən" Hacı Kazıma, "heç bir döyüşdə qılınc çıxarıb baş kəsməyən, heç bir cəngdə əlinə qalxan almayan Hacı Turab oğlu Qurutdu Məmməd"ə və s. veriblər. Şair yalnız iki nəfərin bu ada layiq olduğunu bildirir.

*İki kəs var ki, bəli, onlara bəylik yaraşar*
*Sahibi cudü səxa, rəhmü mürüvvət kani [5, s.24].*

Onu da qeyd edək ki, şairin siyasi tənqidi hədəfinə təkcə rus çarizmi deyil, İran despotizmi, feodal-patriarxal ənənələr içində boğulan klassik Şərq ölkəsi də məruz qalırdı. Siyasi satiralarda şair qələmi süngüyə çevirib birbaşa şahlıq quruluşunu, onun idarəçilik metodunu, insan hüquqsuzluğunu, hakimiyyətin başında duran şəxsin hər şeyi öz eyş-işrətinə qurban verməsini, xalqın yaşayışı, güzəranı

barədə düşünməməsini kəskin tənqid hədəfinə çevirirdi. Seyid Əzim Şirvani "Nəsrəddin şahın həcvində" adlı şeirinin əvvəlində qeyd edir ki, o, öz "Təzkirə"sində İranın o zamankı hökmdarı Nəsrəddin şahı mədh etmiş, onun haqqında "səmimi-dil"dən gözəl sözlər işlətmişdir. Döğrudan da "Nəsrəddin şahın mədhində qəsidə"sində şair klassik üsluba uyğun olaraq şahı yüksək epitet və təşbehlərlə bəzəmiş, onu obrazlı ifadələrlə tərənnüm etmişdir. Şair Nəsrəddin şahı "ikinci İskəndər", "Fərudini-ədalət", "Nuşirəvan", "xurşidi-fələk", "zilli-həq", "mehri-dirəxşan", "şahənşahi-ədl" və s. kimi parlaq ifadələrlə oxucuya təqdim edir, ona mədh və dualar oxuyur:

*İlahi bəxtü dövlət Nəsrəddin şahə yar olsun,*
*Səriri səltənətdə ta qiyamət şəhriyar olsun.*
........................................................................
*Cahan durduqca dursun Xızr tək bu dəhri-fanidə,*
*Cahan abi-həyati feyzinə ümmidvar olsun [6, s.9].*

Lakin bu təmtəraqlı misraların müəllifi sonradan yanıldığını, şahdan xalq üçün imdad gözləməyə dəymədiyini başa düşür və peşmançılıq keçirir. Çünki Nəsrəddin şah 1865-ci ildə təzəcə dağıdıcı zəlzələdən çıxan Şirvandan keçib Rusiyaya gedərkən yerli şirvanlılar şahın ziyan çəkmiş şəxslərə yardım edəcəyini düşünürdü, lakin şah heç onları qəbul da etməmiş, gecə yatıb səhər yoluna düzəlmişdi. Ümidi kəsilən şair yenidən qələmə sarılaraq "Nəsrəddin şahın həcvində" adlı qəsidəsini yazır:

*Hər o şəxsin ki, evi uçmuş idi zəlzələdən,*
*Dedi ki, şah gəlir, oldu qızıldan dirəyim,*
*Şüəra, həm füqəra cümləsi göz dikdi yola,*
*Filhəqiqət ki, rəhi-şahə dikildi bəbəyim.*
*Qissə kutəh, gecədən bir neçə pas ötmüş idi,*
*Şəhrə şəh varid olub, yatdı, qutardı küləyim.*
*Sübh mindi karuta sürət ilə oldu rəvan*
*İltifat etmədi bir şəxsə nə arif, nə həkim.*
*Tutdular xəlq çörək, kəsmədi çün bir löqmə,*
*Görüb o surəti bildim ki, kəsildi çörəyim [5, s.36].*

Seyid, ümumiyyətlə, dünyagörüşündə, həyata baxışında passiv, donuq deyil, dinamikdir, çevikdir, onun dünyagörüşü genişləndikcə, fikir və düşüncələri kamilləşdikcə predmetə, hadisələrə münasibəti də dəyişir. O, mürtəce deyil, yeniliyə can atır. Doğrudur, həyat bəzən onu sıxır, dolanışıq, gün-güzəran dərdi onu kimlərinsə haqqında mədhiyyə yazmağa, tərifnamələr söyləməyə məcbur edir, ancaq Seyid öz istedadına xəyanət etmir, bədii-estetik cəhətdən bitkin əsərlər yaradır. Bunu onun qəsidələrində və tənqidi şeirlərində açıq aydın görürük.

Seyid Əzimin kəskin satirik şeirlərindən biri də dövrün cəhalət mənzərəsini detallı şəkildə özündə ehtiva edən, cəmiyyətə dini-fanatizm və xurafat yaymaqla insanları əsarətdə saxlamağa çalışan ruhani libası geyinmiş "din dəllaları" dəstəsini ifşa edən "Şamaxı babiləri haqqında" satirasıdır. Əvvəlcə babilik və onun mahiyyəti barədə qısa məlumat vermək yerinə düşər. Məlum olduğu kimi, XIX əsrin ortalarında Babi sektasının əsasını qoyan babilərin rəhbərliyi altında İranda üsyanlar baş verdi. Hərəkatın rəhbərinin əsl adı Seyid Əli Məhəmməd idi. O, gənc yaşlarında 12-ci imam Mehdinin tezliklə zühur edəcəyinə, yer üzündə ədalətsizliyə və zülmə son qoyacağına, tamamilə yeni qaydalar tətbiq edəcəyinə inanan şeyxilər təriqətinə qoşulmuşdu. 1844-cü ildə Əli Məhəmməd özünü Bab, yəni qapı elan edərək Mehdinin öz iradəsini onun vasitəsilə xalqa ötürəcəyini elan etdi. 1847-ci ildə özünü imam elan edən Bab Quranı təqlid edən "Bəyan" adlı kitab yazaraq öz fikirlərini xalqa açıqladı. Babilər hərəkatının hədsiz

gücləndiyini görən şah 1850-ci ilin iyulunda Babın güllələnməsi haqqında əmr verdi. Lakin Babın güllələnməsi babilər hərəkatını nəinki zəiflətdi, əksinə onun güclənməsinə, müntəzəm üsyanlarla izlənməsinə gətirib çıxardı. 1850-1851-ci illərdə hərəkat özünün pik nöqtəsinə çatdı. 1852-ci ilin avqustunda Nəsrəddin şaha qarşı uğursuz terror aktı baş verənə qədər bütün İran babi həyəcanı içərisində yaşadı [7, s.243-249]. Onun təsiri Azərbaycana da gəlib çıxmışdı, ayrı-ayrı bölgələrdə özünü Babın davamçıları elan edənlər dini yeni müstəvidə şərh etməyə çalışır, imam Mehdinin tezliklə zühur edəcəyini bildirirdilər. Onu da qeyd edək ki, babizmin Azərbaycandakı davamçıları İrandakı aktivistlərdən fərqli olaraq, onun siyasi mahiyyətini bir kənara qoyub, yalnız dini tərəfini götürür, passiv gözləmə mövqeyi tutaraq, Mehdinin gəlib hər şeyi yoluna qoyacağını düşünürdülər. Sektanın Şamaxıdakı çoxsaylı müridləri İslamın əsas qayda-qanunlarından, Qurandan, Allahın əmrlərindən imtina edib, Baba və Bab tərəfdarlarına səcdəyə başlamışdılar. Şair Şamaxının "hicrətin min iki yüz səksən ikinci ilindəki" vəziyyətindən çıxış edərək şəhərin cəhalət mühitinə işıq salmağa davam edir, camaatın fırıldaqçıların əlində necə oyuncağa çevrilməsini göstərməyə çalışır.

*Bir neçə fasiqü mərdudi-əbəd, müfsid ola*
*Hərcü mərc eylədilər məmləkəti-Şirvani [5, s.25].*

Burada biz sonradan Cəlil Məmmədquluzadənin məşhur personajına çevriləcək Şeyx Nəsrullahların prototiplərini görürük, Bakıdan çıxıb Şamaxıya yola düşən ağanı qarşılamaq üçün "Bağı-Sərdar" kənarında insanlar "vəcddən naleyi-vaşovqani çəkir", "kimi torpağa yıxılır, kimi başını yerə qoyur", hamı onun "surəti-nəhsinə səcdə qılır", onu "həzrəti-Əli", "vəhyi-rəbbani" adlandırır, ondan şəfa gözləyir, kor gözləri açacağına inanır. Müəllif bu düşüncələrə, cəhalətə ürək ağrısı ilə gülür, sonra bu kinayə sarkazma çevrilir. Xeyrulla Məmmədov həmin dövrdə ölkədə zülmün baş alıb getməsinin səbəbini çarizmin idarə üsulunun səmərəsizliyi ilə izah edir ki, fikrimizcə, bu əsas səbəb deyil, əsas səbəb əhalinin cahilliyi, avamlığı, nadanlığıdır [4, s.188].

Başqa dinlərdən eşitdiklərini xalqa yeni peyğəmbərin təriqəti adı ilə sırıyan fırıldaqçılar özlərini gah Mehdiyi-əsr, gah cənnət qapısı kimi qələmə verməklə avam və cahil insanların inamını qazanmağa, onlar üzərində hakim olmağa çalışırlar. Şair bu tiplərin hər birinin özünəməxsus düşüncə tərzini, davranışını, dünyagörüşünü təsvir etməklə zəngin obrazlar qalereyası yaradır.

*Neçə hüccət olu bir əsrdə mən bilməyirəm,*
*Bularin hansına axır gətirmək iymani?*
*Biri Təbrizdə çıxdı ki, mənəm Mehdiyi-əsr,*
*Biri çıxdı ki, hidayət eləsin Tehrani.*
*Nasirəddin şahı atdı neçəsi güllə ilə,*
*Öldürüblərdi ədavətlə şəhi-İrani.*
*Birisi sahəti-Zəngandan oldu zahir,*
*Odu kim, indi də viranə qoyub Zəngani.*
*Birisi babı seyiddir ki, təzə hüccət olub,*
*Qıymıram kim, ona nisbət eləyim Qeyvani.*
*Gözü göy, burnu yekə, boynu uzun, saqqalı ağ,*
*Deyəsən tanrı dirildib genə Ağ Qurbani [5, s.27].*

Şair hətta onların hər birini ayaması, nisbəsi, adı, nəsli-kökü ilə təqdim edir: "maliki–cəhənnəm" Qara Mirzə Cəfər, "yekəgöz, əyriağız" Ağa Mikayıl, "taqqa" Bahadır, "məlun" Kərbəlay İsmayıl, "Xorasan lotusu" Məşədi Cəfər, "babi" Məcid, "köpək oğlu köpək qəssab" Bağır və s. Şair cənnətə, cəhənnəmə inanmayan bu mənfi tiplərin hamısının ata-babalarının ruhlarının reinkarnasiya qanununa

uyğun olaraq öz əməllərinin müqabilində bir heyvana çevrildiyini istehza ilə bildirir, tənqid sarkazma yüksəlir:

*Kostinin atası Tiflisdə dönüb çal qabana,*
*Eldarın ruhi girib eşşəyə, var palani.*
*Kəlbə İsmailin atası olubdur porsuq,*
*Ulayır indi qəmişlikdə, çəkir əfqani [5, s.28-29].*

Seyid Əzimin bu və bu kimi bir çox qəsidələrindən, ictimai məzmunlu şeirlərindən və satiralarından çıxış edərək onu "kəmetiqad", dinə laqeyd münasibət bəsləyən "mülhid", "dəhri" damğaları ilə damğalayanlar həmişə olmuşdur, sovet dövründə isə marksist-leninçi ideologiyanın daşıyıcısı olan bir çox "ədəbiyyatşünas alimlər" hətta onu ateist bir sənətkar kimi qələmə verməyə çalışmışlar. Bu yanaşma zamanında Firudin bəy Köçərlini də narahat etmiş, şairin dini məzmunlu şeirlərindən nümunələr gətirməklə onun İslam dininə, İslam şəriətinə ehtiram bəsləyən sənətkar olduğunu sübut etmişdir. F.Köçərli yazır: "Pəs əşxası ki, mərhumun haqqında sui-zəndə olub, onu kəmetiqad, süstrəy müsəlmanlardan hesab ediblər, böyük səhvü xəta etmiş olublar. Biəməl alimlərə və ziyankar vaizlərə açıq-açığına acı söz deyib onlara lənət oxuyan kəs layiqi-təhsin və afərindir, nəinki təzmim." [2, s.46].

Ümumiyyətlə, Seyid Əzimin dini şeirləri bu gün də müxtəlif müstəvilərdə interpretasiya olunmaqdadır, hansısa beyti kontekstdən çıxarmaqla, yaxud onun hansısa bir şeirinə nəzirə yazıb onu şairin adından təqdim etməklə (məsələn: Seyidə aid olmayan "Öküz oğlu" adlı şeir) onun şiə, sünni, vəhabi, babi, xarici məzhəbinə mənsub olması barədə iddialar irəli sürülür ki, bunların heç birinin əsası yoxdur. Əslində, Seyid Əzim riyakarlıqdan, nadanlıqdan, cəhalətdən kənar, insanı mənəvi saflığa, düzlüyə, dürüstlüyə səsləyən, millətin maariflənməsində önəmli rol oynayan bir İslam fədaisi idi. Əslində, "Hacı Seyid Əzim öz əsrinin ayineyi-həqiqətnüması olub, bizim şüəramızın möhtərəmlərindən Qasım bəy Zakir, Mirzə Əbülqasım Nəbati, İskəndər ağa Şair kimi millətin cəhalət və zəlalətdə qalmaqlarına bais olan üləma və fanatik ruhani sinfi ilə həmə vəqt cəngdə olubdur. Bu sinif onun xoşuna gəlməyən firqə olubdur ki, ömrünün çoxunu onların paxırının üstünü açmağa, riyayi ibadət və min cürə hiyləvü təzvirlərini xalqa göstərməyə səy edibdir" [2, s.38].

Seyid Əzimin satiralarında çoxlu dini adlara rast gəlirik ki, bu adlar tarixi-tipoloji müqayisəyə imkan verməklə dövrün acgöz, tamahkar, yalançı ruhani təbəqəsinin nümayəndələrinin mükəmməl obrazını yaratmağa xidmət edir. Şair zülümkar, ədalətsiz, qaniçən insanları İslam tarixinin əli qana batmış tarixi şəxsləri –Mərcanənin oğlu (Kufə hakimi İbn Ziyad nəzərdə tutulur), Yezid, Əzrəq, Hərmələ, Öməri-Səd, Sənan ibn Ənəs, Şümri-şəqi və s. ilə müqayisə edir və xurafat, fanatizmin 1400 ildən sonra da bu insanlara kamilləşməyə, bütövləşməyə imkan vermədiyini diqqətə çatdırmağa çalışır. Seyid sanki aradakı zaman məsafəsini götürür, keçmişə boylanmır, əksinə, keçmişi zəmanəsinə gətirir və hətta peyğəmbərin həmin şəxsləri özünə ümmət saymayacağını vurğulayır.

*Cəddim tüpürür görsə sizi ruzi-cəzadə,*
*Söylər ki, deyilsiz mənə ümmət, köpək oğlu [5, s.34].*

Ümumiyyətlə, Seyid Əzim şeirlərinin xarakterik xüsusiyyəti onların zamansızlığında və məkansızlığındadır. Uzağa getməsək, belə onun üfüqünün bir ucu Füzuli dövründədi, digər ucu XXI əsrdədir. Şeirlərin mətn və forma genişliyi onların daxili sərhədsizliyində öz əksini tapır. Filologiya elmləri doktoru Cavanşir Yusifli yazır: "Zakirdən fərqli olaraq, Seyid Əzimdə satirik kontekstə keçid "yarğanlar şəklində" hiss edilmir. Seyid Əzimin bu tipli mətnlərində vəziyyəti duyaraq, yaşayaraq, ondan çıxış yolunun qaldığını güman edərək yazmaq tərzi hiss edilir. Başqa bir tərəfdən - forma baxımından da

Seyiddə bu keçid, sanki öz intonasiyasına ironiya ilə süslənir" [9]. Seyidin satiralarının böyük hissəsi onun qəzəlləri ilə eyni formanı bölüşür, sadəcə olaraq onların arasında intonasiya fərqi var.

Seyid Əzim "Quba təziyədarları və xeyməni qarət edənlərə" adlı şeirində kimisə təhqir etmək, alçaltmaq niyyətində olmadığını, sadəcə olaraq əsrdaşlarına ibrət dərsi vermək istədiyini qeyd edir. Seyid Əzim müasirləri olan din xadimlərini "əsl müsəlman kimi doğru, dürüst, yalandan uzaq, bəsirət və mərifət sahibi kimi görməyə", onları həqiqi insanlığa xidmət etməyə çağırırdı [3, s.64].

*Seyyid cühəla fövcinə bu sözləri yadı,*
*Ta eyləyəsiz haldən ibrət, köpək oğlu [5, s.35].*

Seyid Əzim bir milli təəssübkeş olaraq xalqının daim qabaqda olmasını, tərəqqi etməsini, dünyanın inkişaf etmiş xalqlarının sırasına qovuşmasını arzu edir, düşmənlərin qarşısında başını uca tutmaq, elmə, maarifə yiyələnməsini vacib sayırdı. Şair bir beytində deyirdi:

*Bari elə olmaq ki, bizə gülməyə düşmən,*
*Hər şəhrdə var xarici millət, köpək oğlu! [5, s.32].*

S.Ə.Şirvaninin «Tələbənin hadisəsi», «Müctəhidin təhsildən qayıtması», «Elmsiz alim», «Köhnə elmdən şikayət», «Köpəyə ehsan», «Riyakar abid», «Yerdəkilərin göyə şikayəti», "Bəlx qazisi və xarrat", "Alim oğul ilə avam ata" və s. kimi satiralarında da din pərdəsi altında öz mənafelərini güdən, xalqı aldadan ruhanilərin, axundların, yalançı din xadimlərinin ümumiləşdirilmiş obrazları yaradılmışdır. Bütün bu tənqidlərə baxmayaraq, Seyid Əzim İslama qarşı çıxmır, onun tarixinə, ənənlərinə, adətlərinə ehtiramla yanaşır.

*İndi naxoşdu-milləti-islam,*
*Ona lazımdır eyləmək əncam.*
*Dərdimizdir bu dərdi-nadanlıq-*
*Ki, tutubdur bizi pərişanlıq.*

**Nəticə**

*Seyid Əzim millətin avamlıq, cahillik xəstəliyindən (o, buna naxoşluq deyirdi) qurtulmasının yolunu dünyəvi mətləblərin açılmasında, təhsilin ruhanilərin təsirindən çıxarılmasında, avropalılar kimi Ayın, Günəşin nədən tutulmasının, zəlzələnin nədən baş verməsinin səbəblərini öyrənməkdə görürdü. O, dünyəvi məktəblərin açılmasına müqavimət göstərən şəxslərə başa salmağa çalışırdı ki, burada dinə, şəriətə zidd və ziyan olan bir şey yoxdur. Seyid Əzim bu fikirləri səsləndirərkən intonasiyanı tez-tez dəyişirdi, bəzən sərt, bəzən sakit, bəzən isə fikrini lağlağı şəklində çatdırırdı. Amma bütün hallarda dəqiq hədəfə vururdu. Məhz bu nöqteyi-nəzərdən onun satirik əsərləri yalnız dövrünün güzgüsü deyil, həm də gələcək nəsillər üçün qiymətli ədəbi və ictimai irsdir.*

**Ədəbiyyat siyahısı:**

1. Əhmədli R. Seyid Əzim Şirvaninin fəlsəfi görüşləri. "Elm" nəşriyyatı, Bakı, 2005, 196 səh
2. Köçərli F. Azərbaycan ədəbiyyatı. II cild, Bakı, Avrasiya press, 2005, 560 səh
3. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. "Elm və təhsil", Bakı, 2017, 552 səh
4. Məmmədov X. XIX əsr Azərbaycan ədəbiyyatı. SBC nəşriyyatı. Bakı, 2006, 212 səh

5. Şirvani Seyid Əzim əsərləri. II cild. Bakı, 1969, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 649 səh
6. Şirvani Seyid Əzim Əsərləri III cild. "Elm" nəşriyyatı, Bakı-1974, 304 səh
7. История Ирана. М. издательство, МГУ, 1977, стр 243-249
8. https://manera.az/index.php?newsid=8322
9. https://clb.az/elektron/Kocerli/meqale/122.pdf

**Gunel Guliyeva**

**Social criticism and enlightenment in the satirical work of Seyid Azim Shirvani**

***Summary***

Seyid Azim Shirvani, as one of the prominent enlighteners of 19th century Azerbaijani literature, played an important role in our satirical poetry. The poet's satirical work was aimed at the struggle against backwardness, ignorance, hypocrisy and injustice. Writing in a simple, understandable language, Seyid Azim Shirvani called on the people to enlightenment and tried to awaken them from the sleep of ignorance. In his works, Seyid Azim Shirvani, who emphasized the ideas of enlightenment and human-worldly thinking, used satire not only as a target for laughter, but also as a means of social criticism and reform. He criticized the main social evils of the time, such as illiteracy, hypocrisy, religious fantasy, and violation of women's rights, and emphasized the superiority of enlightenment and reason. The poet's satirical poems are of particular importance in the development of national awakening and critical realism in Azerbaijani literature.

***Keywords:*** *Seyid Azim Shirvani, enlightenment, satire, realism, social criticism*

*Filologiya üzrə fəlsəfə doktoru,* ***Rəna İskəndərli***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*